**Reyhan İsgəndər qızı ƏHMƏDOVA**
Qərbi Kaspi Universiteti
Psixologiya və Sosial iş kafedrasının dosenti, psixol.ü.f.d
E-mail: r.akhmadova@wu.edu.az

**Emiliya Rakim BAĞIRZADƏ**
Qərbi Kaspi Universiteti, Psixologiya və Sosial iş kafedrasının magistrantı
E-mail: bemiliya2525@gmail.com

# ELMİ-PSİXOLOJİ ƏDƏBİYYATDA ÜNSİYYƏT FENOMENİ

**Xülasə**

Ünsiyyət, insanların bir-biri ilə duyğularını, düşüncələrini, informasiyanı paylaşması prosesidir. İnsan ünsiyyətdə olarkən inkişaf edir. Ünsiyyət dedikdə, ağla ilk olaraq söz yığınından ibarət cümlələr gəlir. Lakin bura: mimikalar, jestlər və bədən hərəkətləri də aid edilir. Biz ünsiyyətdə olarkən həm özümüzü izah etmiş oluruq, həm də qarşı tərəfi anlayırıq.

Aparılan araşdırmalara görə ünsiyyətin məqsədi insanların bir biri ilə qarşılıqlı əlaqə, bir birinə təsir göstərməsi və anlamasıdır. Ünsiyyət olmasa biz bir-birimizi doğru şəkildə anlayıb, əlaqə saxlaya bilmərik. Ünsiyyət prosesində biz məlumat ötürmürük bunda əlavə hisslərimizi də qarşı tərəfə ötürmüş oluruq. Uğurlu ünsiyyətin əsasında qarşılıqlı anlama, bir-birini dinləmə və düşüncələrini aydın şəkildə ifadə etmə dayanır.

**Açar sözlər:** ünsiyyət, fəaliyyət, mübadilə, inkişaf, proses, şəxsiyyət, təsir.

**UOT:** 159.9
**DOİ:** https://doi.org/ 10.54414/HWTU5262

## Giriş

İnsanlar birgə fəaliyyət zamanı bir- biri ilə informasiya mübadiləsi aparırı,bir- birin qarşılıqlı şəkildə təsir göstərir və anlayırlar. Bir sözlə ünsiyyət prosesində iştirak edirlər. Ünsiyyətin vacib şərtləridən biri də insanın fəaliyyətdə olmasıdır. Ünsiyyət prosesi olmadan insanların qarşılıqlı fəaliyyətdə olması mümkün deyil. Ünsiyyət vasitəsi ilə insanlar bir birini anlayır, müəyyən nəticəyə gəlirlər. Biz gündəlik həyatımızda belə kimləsə əlaqə saxlamağa ehtiyac duyuruq. Bunu sadəcə sözlərimizlə ifadə etmirik, həmçinin bədən dili, jestlər və mimikalarımızla belə mümkündür.

Ünsiyyət insanlar arasında qarşılıqlı əlaqənin, təmasın və inkişafın təsiri nəticəsində ortaya çıxır. İnsanlar arasında qarşılıqlı əlaqə yaradılmadan birgə fəaliyyət həyata keçirilə bilməz və onlar arasında qarşılıqlı anlaşma baş verməz. Sağlam şəkildə qurulan ünsiyyətdə insanlar bir-birini daha yaxşı anlayır və cəmiyyətdə münasibətlərin möhkəmlənməsində iştirak edir. Ünsiyyət insanlar arasında qarşılıqlı fəaliyyət olmadan yaranan təmasın planlı inkişaf prosesidir [1, s.14].

Ünsiyyət prosesində insanlar mühit haqqında məlumat əldə etməklə yanaşı, eyni zamanda adətlərə yiyələnirlər. Ünsiyyət obyektin varlığının dərk olunmasında mühüm rol oynayır [1, s.15].

## Əsas hissə

Ünsiyyət insanların bir-birinə təsir göstərməsinin əsas vasitələrindən biridir [5, s.3]. Hər birimiz insanlar arasında yaşayır və fəaliyyət göstəririk. Bu zaman bəzilərini sevirik, bəzilərinə neytral münasibət bəsləyirik, bəziləri ilə izə yalnız rəsmi münasibət saxlayırıq. Bu halların hər birində biz öz istəyimizdən asılı olmayaraq ünsiyyətdə oluruq. Müasir dövrdə qarşılıqlı ünsiyyətin forması dəyişib. Əvvəllər insanlar üz-üzə əlaqə saxlayardılar, indi isə sosial

şəbəkələr və müxtəlif mesajlaşma proqlarına üstünlük verirlər. Lakin canlı şəkildə qurulan ünsiyyətin yeri fərqlidi, heç bir texnologiya göz təmasını və səmimi gülüşü əvəz edə bilməz.

Ünsiyyət insanı insan edən bir prosesdir. Ünsiyyət-insan mövcudluğunun əsas formasıdır. Ünsiyyət təkcə insanlarla olmur. Bəzən biz, heyvanlarla və təbiətlə də ünsiyyətdə oluruq. Ev heyvanlarımıza nəsə demək və ağacın altında oturub sakitlik tapmaq belə ünsiyyətdir. Burdanda məlum olur ki, ünsiyyət yalnız cümlə və sözlərlə deyil, hisslərlə də ifadə etmək mümkündür. Ünsiyyətin olmaması və ya çatışmazlığı insan şəxsiyyətini deformasiyaya uğrada bilər [3, s.379].

Ünsiyyət sistemində iki növ siqnaldan istifadə edirilir: işarələr və simvollar. İşarələr, çatdırdıqları mesaja səbəb-nəticə əlaqəsi ilə bağlı olan siqnallardır. Məsələn, birinin utanmasını ifadə edən qızarmağın mənasını bilirik, çünki utanmanın qızarmağa səbəb olduğunu anlayırıq. Simvollar isə əksinə, sosial razılaşmaların məhsuludur [6].

Ünsiyyət insan varlığı ilə yaranan ehtiyacdır. Ünsiyyətin marağlı yanı odur ki,insanın fikrini ifadə etmı üsulu,danışıq tərzi fərqlidir. Ünsiyyət diqqət və qarşılıqlı hörmətin əsasında qurulur. Bəzi insanlar ünsiyyətdə danışığa üstünlük verir, lakin dinləmə bacarığı daha vacibdir. Qarşı tərəfi dinlədikcə insanın özünə qarşı hörməti də artır. Mağara divarına çəkilmiş şəkillər, hindlilərin yanğınlarının yaratdığı tüstü, Afrika yerlilərinin tammetrajlı portretləri və s.bütün bunlar ünsiyyət vasitəsidir. Səslər ibtidai insanların ünsiyyət ehtiyaclarını ödəmək üçün istifadə etdikləri primitiv üsullardır. Ünsiyyət insanın və cəmiyyətin mövcud olması üçün zəruri şərtdir [7, s.16].

Ünsiyyət bacarığı mühüm insani keyfiyyətlərə aiddir. Asanlıqla ünsiyyətə girən və özünə hörmət qazana bilən insanlara həmişə xüsusi simpatiya ilə yanaşılır. Özünə qapanan insanlarla isə yalnız ən vacib hallarda ünsiyyət qurulur. Təcrübələr göstərir ki, heç də bütün insanlar düzgün ünsiyyət qurmağı bacarmır. Tədqiqatlardan əldə edilmiş nəticələrə görə insanlar öz işlərinin xüsusiyyətlərinə görə iş vaxtının 50-90 %-ni ünsiyyətə sərf edirlər. İclaslar, söhbətlərin, diskusiyaların keçirilməsi, rəhbərlik qarşısında hesabatlar və s. ünsiyyətin müxtəlif formalarına baş verir [3, s.380].

Beləliklə, ünsiyyət - insanlar arasında, onların birgə həyat və fəaliyyəti zamanı meydana çıxan və özünə aşağıdakıları daxil edən əlaqələrin bərqərar olması və inkişafı prosesidir.

1. Ünsiyyət üzrə tərəf müqabillərin qavranması, dərk edilməsi və başa düşülməsi (ünsiyyətin perseptiv cəhəti) prosesidir;
2. İnformasiya mübadiləsidir (ünsiyyətin kommunikativ cəhəti);
3. Vahid qarşılıqlı təsir strategiyasının işlənməsidir (ünsiyyətin interaktiv cəhəti).

Ünsiyyətin ictimai mənası onun mədəniyyətin və ictimai təcrübənin ötürülməsi vasitəsi kimi çıxış etməsidir. Bu prosesin psixoloji mənası isə ondan ibarətdir ki, onun gedişində bir insanın subyektiv aləmi digər insanlar üçün açılır və onların mənəvi zənginləşməsinə kömək edir [3, s.381].

Ünsiyyətin çox sayda tərifləri vardır, onlardan hər biri ünsiyyət probleminin müəyyən aspektini önə çəkir.

Ünsiyyətə insanın sosiallaşmasının ən vacib alətlərindən biri, onun mövcud olması, əsas tələbatlarının ödənilməsi və tənzimlənməsi üsulu, digər insanlarla qarşılıqlı əlaqəsinin baş kanalı kimi baxıla bilər. Burada vurğu şəxsiyyətin inkişafında ünsiyyətin rolunun üzərinə düşür.

Ünsiyyətə fəaliyyət, məlumat, təcrübə, qabiliyyət, bacarıq və vərdaşlərin mübadiləsi, həmçinin fəaliyyətin nəticələri ilə xarakterizə olunan ictimai subyektlərin (şəxsiyyətlərin, qrupların) qarşılıqlı əlaqəsi və qarşılıqlı fəaliyyəti prosesi kimi, cəmiyyətin və şəxsiyyətin formalaşması və inkişafının zəruri və ümumi şərtlərindən biri kimi anlayış verilə bilər. Bu anlayış ümumi xarakterli olmaqla insanlar, sosial qruplar və s. arasında istənilən qarşılıqlı əlaqənin öyrənilməsinə yönəlmişdir.

Ünsiyyəti müstəqil anlayış kimi də səciyyələndirmək mümkündür: "Ünsiyyət öz aralarında idrak və ya affektiv-qiymətləndirici xarakterə malik informasiyanın mübadiləsi prosesində olan iki və ya daha artıq insanın qarşı-

lıqlı əlaqəsidir”. Bu zaman ünsiyyətin strukturunda üç komponent fərqləndirilir: kognitiv (idraki), affektiv (emosional) və davranış.

Ünsiyyətə insanlar arasında qarşılıqlı fəaliyyətə olan tələbatlardan doğan və özündə məlumat mübadiləsini, vahid qarşılıqlı əlaqə strategiyasının işlənilməsini, insanların bir-birini qavraması və anlamasını ehtiva edən təmasın yaranmasının və inkişafının mürəkkəb, çoxplanlı prosesi kimi baxıla bilər [2, s.6].

Ünsiyyətə hər zaman cox funksional proses kimi baxılmış və aşağıdakı beş əsas funksiyası göstərilmişdir:

1. praqmatik: birgə fəaliyyət prosesində insanların qarşılıqlı əlaqəsi zamanı həyata keçirilir;
2. formalaşdırıcı: insanın formalaşmasında və inkişafında təzahür edir;
3. təsdiqedici: insanın özünü dərk və təsdiq etmək imkanını əldə etdiyi digər insanlarla ünsiyyət prosesində müşahidə olunur;
4. şəxsiyyətlərarası münasibətlərin təşkil edilməsi və saxlanması: intim şəxsiyyət münasibətlərindən başlayaraq işgüzar münasibətlərdə müxtəlif səviyyələrdə özünü büruzə verir [2, s.7].
5. şəxsiyyətdaxili: dialoq tipində qurulmuş daxili və xarici nitq vasitəsilə insanın özünün özü ilə ünsiyyətində həyata keçir.

Praqmatik funksiyada ünsiyyət istənilən qarşılıqlı fəaliyyət prosesində insanların birləşməsinin olduqca mühüm şərti kimi çıxış edir. Fəaliyyət prosesində insanlar arasında birlik olmayanda bu işin icrasını çətinləşdirir, yaxud da tamamilə mümkünsüz edir.

Ünsiyyətin formalaşdırıcı funksiyası da böyük rol oynayır. Uşaqla böyüyün ünsiyyəti sadəcə olaraq, birinciyə onun mexaniki tərzdə mənimsədiyi bacarıqların, vərdişlərin, biliklərin məcmusunun verilməsi prosesi deyil, qarşılıqlı təsirin, zənginləşmənin və dəyişmənin mürəkkəb prosesidir.

Ünsiyyətin həyati vacib əhəmiyyəti özünü aşağıdakı misalda aşkar şəkildə göstərir. XX əsrin 30-cu illərin ABŞ-da uşaqların ciddi, çətin sağalan xəstəliklərdən müalicə olunduqları iki klinikada eksperiment keçirilmişdir. Hər iki klinikada şərait eyni idi, lakin bir klinikada infeksiyalardan ehtiyat edərək qohumları uşaqların yanına buraxmırdılar, digərində isə müəyyən saatlarda valideynlər xüsusi ayrılmış otaqlarda uşaqlarla ünsiyyət saxlaya və oynaya bilərdilər. Bir neçə aydan sonra müalicənin səmərəlilik göstəricilərini müqayisə etdilər. Birinci müəssisədə həkimlərin səylərinə baxmayaraq, ölüm əmsalı üçdə birə yaxınlaşmışdı. Halbuki uşaqların eyni üsullarla müalicə olunduqları ikinci klinikada bir uşaq da olsun ölməmişdi.

Ünsiyyət prosesindəki təsdiqedici funksiya özünü dərk etməyə, təsdiq etməyə imkan verir. Öz mövcudluğunun və dəyərinin təsdiq edilməsini arzulayaraq insan dayaq nöqtəsini digər insanda axtarır [2, s.8]. Məşhur ingilis psixiatrı R.D.Leynq təsdiq olunmamada bir çox psixi xəstəliklərin, ilk növbədə şizofreniyanın mənbəsini görürdü.

Hər bir insan üçün şəxsiyyətlərarası münasibətlərin dəstəklənməsi və saxlanması insanların qiymətləndirilməsinin və müəyyən emosional münasibətlərin ya müsbət, ya da mənfi tərzdə qurulması ilə bağlıdır. Buna görə də digər insana olan emosional münasibət “simpatiya-antipatiya” terminləri ilə xarakterizə edilə bilər. Bu isə öz izini yalnız şəxsiyyət ünsiyyəti deyil, həmçinin işgüzar ünsiyyətdə də qoyur.

Şəxsiyyətdaxili funksiyaya insan təfəkkürünün universal üsulu kimi baxılır. L.S. Vıqotskiy bununla əlaqədar qeyd edirdi ki, “insan öz-özü ilə təklikdə ünsiyyət funksiyasını həyata keçirir” [2, s.9].

Ünsiyyət nitqin inkişafında mühüm rol oynayır. Ünsiyyətin müxtəlif növləri vardır. O bir çox ədəbiyyatlarda məzmununa, məqsədinə və vasitələrinə görə üç növü var.Ünsiyyət məzmununa görə aşağıdakı növləri var: maddi ünsiyyət (əşyalar və fəaliyyət məhsullarında məlumatın ötürülməsi yolu ilə); koqnitiv ünsiyyət (bilik vasitəsi ilə ünsiyyətin kommunikasiyası); kondision ünsiyyət (psixi və fizioloji məzmununda məlumatın ötürülməsi); motivlərlə bağlı ünsiyyət (motivlərin, maraqların, tələbatlarda məlumatın ötürülməsi); işgüzar fəaliyyətlə bağlı ünsiyyət (iş, əməliyyat, bacarıq və vərdişlərdə məlumatın ötürülməsi). Ünsiyyətin məqsədindən aslı olaraq bioloji və sosial növləri vardır [1, s.18]. Bioloji ünsiyyət vasitəsi ilə orqanizmi mühafizə etmək,qorumaq və inkişaf etdirməklə bağlıdır. Sosial ünsiyyət vasitəsi ilə şəxsiy-

yətlərarası münasibətləri inkişaf etdirmək, münasibətləri gücləndirmək və fərdin şəxsi inkişafının möhkəmlənməsində mühüm rol oynayır. Ünsiyyətin vasitəli və vasitəsiz növlərini də qeyd etmək olar.

Vasitəsiz ünsiyyət heç bir kənar təsirlərə məruz qalmadan ünsiyyət və şəxsi təmasda olan adamları bir-biri ilə ünsiyyətdə olmasıdır. İnsan qarşı tərəflə ünsiyyətdə olduğu zaman bədən dilini, sözlərini, səsini və mimikalarını qarşı tərəfə ötürür. Dinləyən tərəf isə bunu hiss edir. Ən çox istifadə etdiyimiz ünsiyyət forması məhz budur. Texnologiya vasitəsi ilə ünsiyyət forması indiki dövürdə geniş yayılıb. İnsanlar telefon, mesajlaşma proqramların geniş şəkildə istifadə edirlər. Lakin bu ünsiyyət forması üz-üzə olan ünsiyyət kimi effektiv olmur. Çünki vasitəsiz ünsiyyət formasında insanlar göz təması qururlar, səmimiyyəti hiss edirlər və emosiyalarını qarşı tərəfə rahat şəkildə ötürə bilirlər.

Vasitəli ünsiyyət isə müxtəlif vasitələrin köməyi ilə həyata keçirilir. Vasitəli ünsiyyətin üstün cəhətlərindən biri də insanın şəxsi həyatı ilə yanaşı iş mühitində də mühüm rol oynayır. Şirkətlərarasında e-mail vasitəsi ilə yazışmalar aparılır, fərqli ölkələrarasında videokonfranslar vasitəsilə görüş təşkil olunur. İnsanlar məkan və zamanca bir-birindən təcrid olunduqda bu ünsiyyət vasitəsinə önəm verirlər. Bunra: əşyaları, qeydləri, kitabları, mədəniyyət obyektlərini, digər vasitə üsullarından istifadə olunur: telefon, radion, televizor, kompyüter və s. aid etmək olar [1, s.19].

Ünsiyyət şəxsiyyətlərarası və ya kütləvi ola bilər. Kütləvi ünsiyyət bir-birinə tanış olmayan insanların çoxsaylı təmaslarıdır, həmçinin müxtəlif kütləvi informasiya növləri vasitəsilə həyata keçirilən kommunikasiyadır. O, birbaşa və vasitəli ola bilər. Birbaşa kütləvi ünsiyyət mitinqlərdə, yığıncaqlarda, nümayişlərdə, bütün böyük sosial qruplarda (izdiham, camaat, auditoriya) müşahidə olunur. Vasitəli kütləvi ünsiyyət birtərəfli xarakter daşıyır və kütləvi mədəniyyət və kütləvi kommunikasiya vasitələri ilə bağlıdır.

Kütləvi ünsiyyətin ən güclü aləti isə sosial şəbəkə və internetdir. Əvvəllər insanlar məlumatı qəzetlərdən öyrənirdilər, indi isə sosial şəbəkə vasitəsilə bu daha əlçatandır. Kütləvi ünsiyyətin müsbət və mənfi tərəfləri var. Bəzən yanlış məlumatın yayılması insanlara müəyyən fikiri zorla qəbul etdirmək məqsədi ilə istifadə oluna bilər. Hər yayılan məlumata inanmamalıyıq.

Tərəfdaşların hüquq bərabərliyinə görə şəxsiyyətlərarası ünsiyyətin iki növü fərqləndirilir: dialoji və monoloji.

Dialoji ünsiyyət bərabərhüquqlu subyekt-subyekt qarşılıqlı əlaqəsidir.Onun məqsədi hər bir tərəfdaşın qarşılıqlı dərk olunması, məqsədlərinin həyata keçməsinə can atılmasıdır [2, s.10].

Monoloji ünsiyyət tərəfdaşların qeyri-bərabər mövqelərində həyata keçən subyekt-obyekt münasibətidir. O, imperativ və manipulyativ ola bilər.

İmperativ ünsiyyət tərəfdaşa avtoritar, direktiv qarşılıqlı təsir olunması formasıdır. Məqsəd onun davranışının, fikirlərinin nəzarət altına alınması və müəyyən hərəkətlərə, yaxud qərarlara məcbur edilməsidir. Bu zaman həmin məqsəd heç də pərdələnmir.

Manipulyativ ünsiyyət öz məqsədlərinə nail olunması üçün ünsiyyət tərəfdaşına təsirin gizli şəkildə göstərilməsi ilə xarakterizə olunan şəxsiyyətlərarası ünsiyyət formasıdır. Kommunikasiyanın tipindən asılı olaraq ünsiyyətin iki növü göstərilir: rol və şəxsiyyət.

Rol ünsiyyətində insanlar onların tutduqları statuslardan irəli gələrək fəaliyyət göstərirlər (məsələn, müəllimlə şagirdlərin. sex rəisi ilə fəhlələrin və s. ünsiyyəti). Rol ünsiyyəti cəmiyyətdə qəbul olunmuş qaydalarla və müraciət spesifikası ilə tənzimlənir.

Şəxsiyyət ünsiyyəti insanların fərdi xüsusiyyətlərindən və onların qarşılıqlı münasibətlərindən asılıdır. Ünsiyyət həmsöhbətlərin məqsədlərindən, fəaliyyətlərinin məzmunundan, fərdi xüsusiyyətlərindən, simpatiyalarından, antipatiyalarından və s. asılı olaraq qısa vəuzunmüddətli ola bilər [2, s.11].

Ən primitiv ünsiyyət səviyyəsi fatik ünsiyyətdir (“fatuus” latın sözü olub “səfeh” deməkdir). O, söhbətin saxlanması üçün sadə replikalar mübadiləsini nəzərdə tutur, dərin mənaya malik deyildir. Belə ünsiyyət standart-

laşdırılmış şəraitdə zəruri olur, yaxud etiket normala ilə müəyyən edilir. Fatik ünsiyyətin əsas məqsədi sadəcə qarşı tərəfə məlumat vermək deyil, həmdə əlaqə yarat və münasibət qormaq nəzərdə tutulur. İnsanlar bir-biri ilə ünsiyyəti davam etdirməyə çalışırlar. Bu ünsiyyət forması gündəlik həyat tərzimizdə vacib rol oynayır. İnsanlar fatik ünsiyyət vasitəsi ilə bir-birinə isti münasibət bəsləyirlər.

Əgər bir qrupda və ya kollektivdə fatik ünsiyyət geniş yayılıbsa, onlar arasında münasibət daha səmimi olur. Əksinə olması isə onlar arasında soyuqluğun yaranmasını və məsafəni göstərir. Fatik ünsiyyət vasitəsi ilə sosial əlaqələr güclənir. Fərqinə varmadan gündəlik həyatımızda istifadə etdiyimiz ünsiyyət forması budur.

Ünsiyyətin informasiya səviyyəsi həmsöhbətlər üçün maraqlı, insanın emosional, düşüncə, davranış aktivliyinin mənbəsi olan məlumatların mübadiləsini nəzərdə tutur.

Ünsiyyətin şəxsiyyət səviyyəsi elə qarşılıqlı təsiri xarakterizə edir ki, onunla subyektlər özlərini dərindən kəşf etməyə, özünün və digər insanın, ətraf mühitin mahiyyətini dərk etməyə qadir olurlar. O, insanın özünə, digər insanlara və bütövlükdə ətraf mühitə pozitiv münasibəti üzərində qurulmuşdur. Bu, ünsiyyətin ali mənəvi səviyyəsidir.

Şəxsiyyətlərarası ünsiyyət-ünsiyyət prosesində iştirak edən insanların tələbatlarını, maraqlarını, məqsədlərini əks etdirən şəxsi motivlərlə, təbii və sosial hallarla şərtlənən ünsiyyət şəxsiyyətlərarası ünsiyyət adlanır. Şəxsiyyətlərarası ünsiyyət təkcə sözlərlə ifadə olunmur. Danışdığımız sözlər, hətta bədən dili, jestlər və səs tonu mühüm rol oynayır.

Ünsiyyətin vacib məqamlarından biri də qarşılıqlı hörmət və anlayışdır. Münasibəti gücləndirən isə qarşı tərəfi dinləmək, fikirinə dəyər vermək və sözünü kəsməməkdir. Sağlam şəkildə qurulan ünsiyyət dostluqları möhkəmləndirir, ailə bağları güclənir və iş mühitində əməkdaşlıq rahat olur. Şəxsiyyətlərarası ünsiyyət zamanı problemlərdə ola bilər. Bəzən elə bir hal yaranır ki, insanlar bir-birini yanlış anlayır və bəzən isə özlərini düzgün ifadə edə bilmədiklərində mübahisə yaranır.

Şəxsiyyətlərarası ünsiyyət insanın xarakterini də əks etdirir. İnsanlar üz-üzə deyil, mesaj və videozənglərlə bir-biri ilə qarşılıqlı əlaqədə olurlar. Bu hal isə məsafənin qısalmasına, lakin canlı şəkildə olan söhbəti başqa olur. Düzgün şəkildə qurulan ünsiyyət həm ailədə, həm dostluqlarda həmdə iş mühitində saxlanılan ünsiyyəti gücləndirir.

Sağlam şəkildə yaranan ünsiyyətdə ailə bağı güclənir və dostluqlar möhkəmlənir. Adətən şəxsiyyətlərarası ünsiyyət emosional xarakter daşayır və həyatın bütün tərəflərinə aiddir. Şəxsiyyətlərarası ünsiyyətin kəmiyyət xarakteristikası "ünsiyyət dairəsi" anlayışında inkişaf etmişdir. "Ünsiyyət dairəsi" dedikdə bu və ya digər səviyyədə ünsiyyətdə ol duğumuz insanların sayını başa düşürük [2, s.12].

**Nəticə**

Ünsiyyət həyatımızın ayrılmaz hissəsidir.Biz hisslərimizi,duyğularımızı və düşüncələrimizi ifadə etmək üçün ünsiyyətdən istifadə edirik. Ünsiyyət təkcə sözlər və cümlələrdən ibarət deyil, mimika, jest və bədən hərəkətləri də əsas tərkib hissələrindən biridir. Bunların əsasında insanlar bir-birini anlayır,qarşılıqlı təsir göstərir.

Sağlam şəkildə qurulan ünsiyyət insanın inkişafına, cəmiyyətin daha harmonik və anlaşılır olmasına müsbət təsir göstərir. Texnologiyanın inkişafı ünsiyyət prosesini asanlaşdırsa da, lakin insanlar bir-birində birazda olsa uzaqlaşıb. Sosial şəbəkədə ünsiyyətdə olmaq rahat olsa belə insanlar üz-üzə əlaqə saxlamağı unudurlar.

Ünsiyyət, insanın özünü dərk etməsinə, başqalarına təqdim etməsinə şərait yaradır. İnsan ünsiyyət prosesində özünün fərqinə varır. Biz qarşılıqlı təsir dedikdə bura təkcə məlumatın ötürülməsi aid deyil, həm də empatiya hissinin qurulması,emosional bağın qurulması da aiddir. Ünsiyyət insan münasibətlərinin təməlidir. Düzgün ünsiyyət yoxdursa, narazılıqlara yol aça bilər.

Hər millətin ünsiyyət tərzi fərqlidir. Bəzi xalqlar jestlərdən,mimikalardan və jestlərdən daha çox istifadə edirlər. Bu müxtəliflik insanların həyatına rəng qatsa da, bəzən yanlış anlaşılmalara yol verir.

Ünsiyyət bacarıqlarımızın inkişaf etdirilməsi həm öz həyatımızda, həm də cəmiyyətin içərisindəki yerimizi daha uğurlu edir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Həmzəyev, M.Ə., Əmiraslanova, S.F. Ünsiyyət psixologiyası: dərs vəsaiti. – Bakı: 2007. – 180 s.
2. Qədirova, R.Q., Məmmədli, İ.M. Ünsiyyət psixologiyası: dərs vəsaiti. – Bakı: Ecoprint, 2016. – 152 s.
3. Salamova, K.B. Ümumi psixologiya: dərs vəsaiti. – Bakı: Elm və Təhsil, 2014. – 448 s.
4. Olena Serhiivna Kocharian and Ievheniia Volodymyrivna Kryshtal / Communication psychology / V. N. Karazin Kharkiv National University—2016 – 162 p.
5. Robert M. Krauss / The Psychology of Verbal Communication / Department of Psychology Schermerhorn Hall Columbia University New York, NY 10027—183 p.
6.https://www.columbia.edu/~rmk7/PDF/IESBS.pdf
7.https://ets.anadolu.edu.tr/storage/nfs/ILT184U/ebook/ILT184U-13V3S1-8-0-1-SV1-ebook.pdf

**Reyhan Isgander AHMEDOVA**
Ph.D. in Psychology
Western Caspian University,
Associate Professor of the Department of Psychology and Social Work,
E-mail: r.akhmadova@wu.edu.az

**Emiliya Rakim BAGİRZADE**
Western Caspian University,
Master's student of the Department of Psychology and Social Work
E-mail: bemiliya2525@gmail.com

## THE PHENOMENON OF COMMUNICATION IN SCIENTIFIC-PSYCHOLOGICAL LITERATURE

**Summary**

Communication is the sharing of feelings, thoughts, and information between people. People develop when they communicate. When we think about communication, at first sentences consisting of a bunch of words that come to our mind. However, this also includes facial expressions, gestures, and body movements. When we communicate, we both explain ourselves and understand the other person.

According to researchs, the purpose of communication is to interact, influence, and understand each other. Without communication, we cannot understand each other correctly and maintain contact. The purpose of communication is not only transmit the information, but we also to transmit our feelings to the other person. The basis of successful communication is mutual understanding, listening to each other, and clearly expressing our thoughts.

**Keywords:** communication, activity, exchange, development, process, personality, influence.

**Рейхан Искендер АХМЕДОВА**
Западно-Каспийский университет,
Доцент кафедры психологии и социальной работы, кандидат философских наук. по психологии.
Электронная почта: r.akhmadova@wu.edu.az

**Эмилия Раким БАГИРЗАДЕ**
Западно-Каспийский университет, магистрант кафедры психологии и социальной работы
Электронная почта: bemiliya2525@gmail.com
Emiliya.bagirzade.2024@wcu.edu.az

## ФЕНОМЕН КОММУНИКАЦИИ В НАУЧНО-ПСИХОЛОГИЧЕСКОЙ ЛИТЕРАТУРЕ

**Резюме**

Коммуникация — это обмен чувствами, мыслями и информацией между людьми. Люди развиваются, когда общаются. Когда мы думаем о коммуникации, на ум в первую очередь приходят предложения, состоящие из набора слов. Однако сюда также входят выражения лица, жесты и движения тела. Когда мы общаемся, мы одновременно объясняем себя и понимаем другого человека.

Согласно исследованиям, цель общения — взаимодействие людей, влияние друг на друга и понимание друг друга. Без общения мы не сможем правильно понимать друг друга и поддерживать контакт. В процессе общения мы не передаем информацию, но мы передаем свои чувства другому человеку. Основа успешного общения — взаимопонимание, умение слушать друг друга и четко выражать свои мысли.

**Ключевые слова:** коммуникация, деятельность, обмен, развитие, процесс, идентичность, влияние.

**Daxil olub:** 25.07.2025